https://doi.org/10.59849/2410-5600.2026.1.172
UOT: 94

**Nicabət İslamova**
*AMEA Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutu*
*Bakı şəhəri, İstiqlaliyyət küç., 26*
*e-mail: nicabet.1977@mail.ru*

# ŞƏRQİN TARİXİ ŞƏRQ TARİXÇİLƏRİNİN GÖZÜ İLƏ

**Xülasə**

Orta əsrlərdə Şərqdə tarixşünaslıq yüksək inkişaf eləmişdir. Bu dövrdə yazılmış əsərlərə nəzər saldıqda burada Azərbaycanla bağlı maraqlı və qiymətli məlumatlara rast gəlmək mümkündür. Orta əsrlər dövründə əsərlər əsasən ərəb və fars dilində yazılmışdır. Türk dilində yazılmış əsərlərin əksəriyyəti Osmanlı hökmdarlarının dövründə tərcümə olunmuşdur.

***Açar sözlər:*** *Şərq, əlyazma, Qaraqoyunlu, tarixçi, Osmanlı*

## Giriş

*XIV-XVI əsr Şərq tarixşünaslığından danışarkən ilk növbədə onu qeyd etmək lazımdır ki, bu dövrdə Şərqdə tarixşünaslıq çox yüksək inkişaf etmişdir. Bəhs etdiyimiz dövrdə yaşayıb yaratmış türk, fars və ərəb tarixçilərinin əsərləri birbaşa Azərbaycanla, həmçinin burada qurulmuş dövlətlərlə bağlı maraqlı və qiymətli məlumatlarla zəngindir. Bu dövrdə yazılmış əsərlərə ümumi nəzər salsaq görərik ki, türkcə (osmanlıca) yazılmış əsərlər ərəb və fars dillərində yazılmış əsərlərə nisbətən azlıq təşkil edir. Bu da əsasən XIV-XVI əsrlərdə Şərqdə əsərlərin fars və ərəb dillərində yazılmasının dəbdə olduğunu ortaya çıxarır. Türk dilində yazılmış olan əsərlərin əksəriyyətini Osmanlı hökmdarlarının sərəncamları ilə ərəb və fars dillərindən edilmiş tərcümələr təşkil edir. Osmanlı hökmdarları xüsusilə də II Murad elmə, elm adamlarına çox yüksək qiymət vermişdir. Bu dövrdə çoxlu məscidlər tikilmiş və bu məscidlərin nəzdində mədrəsələr yaradılmışdır. Onun hakimiyyəti dövründə Ərəbistandan, Krımdan və həmçinin digər dövlətlərdən Osmanlı imperatorluğuna bir çox dəyərli alimlər gətirilmişdir. II Murad bu alimlərə hərtərəfli qayğı və diqqət göstərərək onların elmi bazasından yüksək səviyyədə istifadə etməyə çalışmışdır. Bu alimlərə Molla Güranini, Şərəfəddin Kırımini, Seyyid Əhməd Kırımini misal göstərmək olar. II Muradın hakimiyyəti dövründə bir çox əsərlərin ərəb və fars dillərindən türkcəyə tərcümə olunması Osmanlı-Türk mədəniyyətinin və elminin yüksəlməsində çox böyük rol oynamışdır.*

XIV-XVI əsrlərdə Azərbaycanda baş vermiş hadisələr haqqında dəyərli məlumatlara ərəb tarixçilərinin əsərlərində də rast gəlmək mümkündür.

XIV-XVI əsrlərdə Misirdə türk əsilli Məmlüklər hakimiyyətdə olmuşdurlar. Məmlük sultanlarının, xüsusilə Baybars, Məhəmməd əl-Nasir, Sultan Həsən, Bərkük, Şeyx əl-Mahmudinin dövründə dövlətin hakimiyyəti altında olan ərazilərdə çoxlu sayda məscidlər və onların nəzdində mədrəsələr tikilmişdir. Bu mədrəsələrdə dövrün görkəmli astronomları, fəqihləri, hədisçiləri, təfsirçiləri, şairləri və tarixçiləri dərs deyirdilər. Həmin dövrdə Qahirə, Hələb, Şam kimi şəhərlər xüsusilə inkişaf etmişdir. Yaxın Şərqin ən böyük şəhərlərində bu günümüzə qədər qalan Məmluk dövrünə aid türbələr, hamamlar, su kəmərləri, məscidlər və mədrəsələrin qalıqları burada yüksək mədəni və iqtisadi inkişafın olduğunu sübut edən dəlillərdəndir.

XIV-XV əsrlərdə ərəb tarixşünaslığı haqqında ərəb mənbələrində olan məlumatlardan dövrün tarixçilərinin çoxlarının varlı və ziyalı ailələrdə dünyaya gəldikləri, bu səbəblə də yaxşı təhsil

gördükləri aydın olur. Şərq tarixçilərinin tarix və tarixşünaslıq haqqında olan düşüncələrinə gəldikdə isə qeyd etməliyik ki, onlara görə tarix deyildiyində bu və ya başqa bir dövrdə baş vermiş hadisələr, həmçinin tarix səhnəsində yaşamış, yaxud yaşamaqda olan bir nəslin (sülalənin) həyatı haqqında olan məlumatlar başa düşülür. Orta əsr tarixçiləri tarixi əsasən zahiri və batini olmaqla iki istiqamətə ayırırdılar. Zahiri tarixşünaslıq yolu ilə tarixi hadisələrin baş vermə mexanizmi və bu hadisələr nəticəsində dövlət sərhədlərinin necə dəyişdirildiyi aydınlaşdırılır. Bütün bu hadisələrin baş vermə səbəbləri, dövlətlər arasında ciddi münaqişələrə gətirib çıxaran siyasi oyunlar isə batını tarixşünaslıq yolu ilə ortaya çıxarılırdı.

Mənbələrin verdiyi məlumatlarda Məmlük sultanlarının alimlərə xüsusi diqqət göstərdikləri, onları müxtəlif vəzifələrə təyin etdikləri aydın olur. Bundan başqa sultanlar öz tarixlərini yazmaq üçün görkəmli tarixçiləri saraylarına dəvət etmişdirlər. Bu tarixçilər bütün müharibələrdə, siyasi görüşlərdə, həmçinin dövlət iqtisadiyyatına aid olan digər yığıncaqlarda bilavasitə sultanın yanında olurdular. Bütün bunlar, tarixçilərin həmin dövr haqqında olan məlumatları daha dəqiq qələmə almalarına kömək etmişdir. Lakin, tarixçilərin hadisələri sultanlara xoş gəlmələri üçün mübaliğəli şəkildə yazmaları da istisna deyildir.

Ümumilikdə götürüldükdə isə orta əsrlərdə, xüsusilə də XIV-XV əsrlərdə Şərqdə tarix elmi yüksək inkişaf etmişdir. Orta əsr tarixçilərinin görkəmli nümayəndələrindən biri də İbn Battutadır. Əsl adı Şərəf əd-Din Abdullah Məhəmməd bin Abdullah bin Məhəmməd bin İbrahim ət-Tanci olan İbn Battuta hicri 704-cü (miladi 1304) ildə Tancda dünyaya gəlmişdir. İyirmi iki yaşında ilk dəfə olaraq Həccə getmək üçün öz ölkəsindən çıxmış, məhz bu çıxış da onun İslam ölkələrinə səyahətinin başlanğıcı olmuşdur. [4, XIX, 61] İbn Battuta Nil bölgəsini və Afrikaya qədər bütün Suriyanı səyahət etdikdən sonra Hicaza, oradan isə İraqa və Mardinə qədər gedərək bütün Mesopotamiyanı gəzmişdir. Hicri 729-730-cu (miladi 1329-1330) illəri Məkkədə keçirdikdən sonra Yəmənə, Somaliyə hətta Zənzibara qədər olan ərazilərə gedib çıxmışdır. [4, XIX, 361] Bundan sonra o, yenidən Hicaza, oradan Məkkəyə oradan da Suriyaya gəlmişdir. Buradan isə gəmi ilə türk dövlətlərinə, yəni Anadoluya ayaq basmışdır. Antalya, Burdur, İsparta, oradan da Dənizliyə qədər gəlib çıxmışdır. [4, XIX, 362] Özünün qeyd etdiyinə görə, Konya, Karaman, Ağsaray, Niğdə, Qeysəri, oradan Sivasa, buradan isə şimala doğru irəliləyərək Sinopdan gəmi ilə Krıma keçmişdir. İddia etdiyinə görə Cənubi Rusiyanı gəzdikdən sonra İstanbula, oradan da Xarəzm, Xorasan, Əfqanıstanın böyük mərkəzlərini ziyarət edərək Sind vadisinə enmişdir. Hindistanı gəzdikdən sonra Çinə doğru yol alan İbn Battuta getdiyi yolla qayıdaraq İraq, Suriya və Misirdən keçdikdən sonra Məkkəyə gəlmişdir. Bundan sonra Mərakeşi, Böyük Səhranı, Sudanı, Nigeriyanı gəzərək hicri 754-cü (miladi 1353) ildə səyahətini başa çatdırmışdır. Bu vaxtlar İbn Battuta 49 yaşında idi. [4, XIX, 364]

İbn Battutanın çox qiymətli əsəri olan "Səyahətnamə"ni səyyahın diktəsi ilə tanınmış alim İbn Cuzzay əl-Qəlbi qələmə almışdır. Hindistanda soyulduğu və səyahət etdiyi gəminin batdığı vaxt qeydlərinin bir hissəsini itirən İbn Battutanın bu əsərində bir sıra dəqiq məlumatlarla yanaşı, bəzi qeyri-dəqiq məlumatlara da rast gəlmək mümkündür. [4, XIX, 363] İbn Cuzzay səyyahın söylədiklərini daha oxunaqlı bir dildə qələmə almaqla bərabər həmçinin yeri düşdükcə əsərə oxuduğu kitablardan və ya başqa səyyahların qeydlərindən bəzi əlavələr də eləmişdir. Mədinə, Məkkə, Şam, Bağdad, İstanbul və s. şəhərləri təsvir edərkən buraya bir sıra görkəmli şairlərin şerlərini də artırmışdır. Oxucularda maraq oyatmaq məqsədi ilə etdiyi bir sıra mübaliğələr, həmçinin başqalarına aid məlumatları qaynaq göstərmədən İbn Battutanın dilindən eşitmiş kimi yazması "Səyahətnamə"də verilən məlumatların oxucular tərəfindən şübhə ilə qarşılanmasına səbəb olmuşdur. Məsələn: İbn Battuta bu əsərində bir dəfə Çinə gedərkən hicri 747 (miladi 1346)-cı ildə, bir də Çindən dönərkən hicri 748-749 (miladi 1347-1348)-cu illərdə Sumatra hökmdarı Məlik əz-Zahir Məhəmməd ilə görüşdüyünü, hətta onun oğlunun toyunda da iştirak etdiyini iddia edir. [4, XIX, 363] Lakin, bu iddianın Sultanın hicri 726 (miladi 1326)-cı ildə öldüyünü bildirən baş daşının tapılması ilə həqiqətə uyğun olmadığı ortaya çıxır. İbn Battutanın Anadolu haqqında verdiyi məlumatlar da çox qısa və ümumidir. Əsəri oxuduğumuz zaman onu Milasdan sonra dərhal Konyada, oradan sonra Ərzuruma qədər yuxarıda adı çəkilən şəhərlərdə görürük. [4, 364] Bu yerlərə dair izahatlar da çox qısadır. Halbuki, o zamanlarda bu şəhərlər Anadolunun mühüm mədəniyyət mərkəzləri idilər.

"Səyahətnamə"nin qeyd etdiyim və qeyd etmədiyim bu bir neçə nöqsanını nəzərə almasaq deyə bilərik ki, əsər çox qiymətli məlumatlarla zəngindir. İbn Battutanın Sudan və Nigeriya bölgəsi, Zənzıbar, Hindiquş, İndus, Maldiv adaları və Sumatraya aid verdiyi məlumatlar Qərb səyyahları və mütəxəssislər tərəfindən də təsdiqlənmişdir. Bundan başqa Volqa (İtil) çayının kənarında yerləşən Saray şəhəri haqqında verdiyi məlumatlar da günümüzün arxeoloqlarının tədqiqatlarının nəticələri ilə üst-üstə düşür. Anadolu haqqında verilən məlumatlara gəldikdə isə "Səyahətnamə"dən bir sıra Anadolu bəylikləri, məsələn, Karamanoğulları, Aydınoğlu bəyliyi, Sivas bəyliyi və s. haqqında məlumat almaq mümkündür.

Bunlardan əlavə, İbn Battuta "Səyahətnamə"sində getdiyi hər bir ölkənin yeməklərindən, geyimlərindən, adət və ənənələrindən, folklorundan bəhs etməklə yanaşı, İslam ölkələrinin iqtisadiyyatı, ticarəti, hətta pul və çəki vahidləri haqqında da məlumat verir. Bütün bunlar isə "Səyahətnamə" əsərinin tədqiqatçılar üçün əvəzsiz mənbə olduğunu ortaya çıxarır. İbn Battuta üç dəfə səyahət etmişdir. Bunları üst-üstə gəldikdə iyirmi doqquz il edir. Bu səyahətlərin ən uzunu birincisi olub Qərb və Şərq ölkələrinin çoxunu əhatə edir. İbn Battutanın səyahətləri zamanı ən çox qaldığı ölkələr Hindistan və Çindir.

İbn Cuzzay hicri 751 (miladi 1350)-cı ildə səyyahın xatirələrini yazıb qurtardı. Əsər yazıldıqdan dərhal sonra məşhurlaşdı. Bu günə qədər "Səyahətnamə" fransızcaya, ingiliscəyə, almancaya tərcümə olunmuşdur. Əsərin ərəbcə mətni Misirdə dörd dəfə, Beyrutda isə iki dəfə çap olunub. [4, 367]

Şərqin digər bir görkəmli alimi İbn Xəldundur. Görkəmli tarixçi, filosof, siyasətçi olan İbn Xəldun hicri 732 (miladi 1332)-ci ildə Tunisdə dünyaya gəlmişdir. Adının geniş forması Əbu Zeyd Vəliyuddin Əbdürrəhman bin Məhəmməd bin Məhəmməd bin Məhəmməd bin Həsən əl-Hadramı əl-Məğribi ət-Tunisidir. [5, II, 228] Əslən Yəmənin Hadramut vilayətindən olduğu üçün Hadrami, Tunisdə doğulduğu üçün Tunisi, həyatının çox hissəsini Qərbi Afrikada keçirdiyi üçün isə Məğribi nisbələri ilə adlandırılırdı. Tanınmış bir nəsildən olan İbn Xəldunun babaları siyasətlə məşğul olmalarına baxmayaraq atası siyasi hadisələrə müdaxilə etməyib, sadəcə elmlə məşğul olmuşdur. İbn Xəldun ilk təhsilini əvvəlcə atasından, sonra isə Məhəmməd ibn Bəhr, Əhməd ibn Kəssar və s. kimi dövrünün görkəmli alimlərindən almışdır. Ömrünün ilk iyirmi ilini Tunisdə, iyirmi altı ilini Cəzair, Fəs və Əndəlusda, dörd ilini yenidən Tunisdə və son iyirmi dörd ilini Qahirədə keçirən İbn Xəldunun böyüdüyü elmi və siyasi mühit onun şəxsiyyətinin formalaşmasında mühüm bir rol oynamışdır. Tanınmış bir ailədə böyüdüyü və yaxşı təhsil gördüyü üçün Tunis, Fəs, Bicayə hakimlərinin saraylarında həmişə yüksək vəzifələrdə işləmişdir. [5, II, 228] Hicri 776 (miladi 1374)-cı ildə İbn Xəldun Fəsdə ona inanmayan yeni hakimiyyət tərəfindən həbs olunmuşdur. Azadlığa çıxdıqdan sonra isə artıq burada qala bilməyəcəyini dərk edərək Əndəlusə getmişdir. Burada bir az qaldıqdan sonra ailəsi ilə birlikdə Tilimsana köçmüşdür. Bu şəhərə gəldiyi vaxt özünü tamamilə elmə həsr edəcəyinə söz verməsinə baxmayaraq bir müddət sonra Sultan onu bəzi ərəb qəbilələri arasında baş vermiş münaqişəni həll etməyə göndərmişdir. [6, II. 314] İbn Xəldun burada ailəsi ilə birlikdə dörd il yaşamış və "Kitabul-İbər va divanul-mübtəda val-xabar fi əyyamil-Arab val-Acəm va'l-Barbar min asarahum min zəvis sultanil əkbar" كتاب الابر وديوان المبتدئ والخبر في ايام العرب والعجم والبربر من آثارهم من ذوي السلطان الأكبر adlı əsərini yazmağa başlamışdır. [7, 353-356 ; 4, XX, 340] Əsərin birinci hissəsini təşkil edən müqəddiməsini hicri 779 (miladi 1377)-cu ildə tamamladıqdan sonra "Əl-İbər"in ərəb dili və barbarlara həsr olunmuş hissəsini yazmağa başlayır. Araşdırmalar zamanı bəzi qaynaqlara ehtiyac duyan İbn Xəldun Sultan Əbul-Abbasdan icazə alaraq hicri 780 (miladi 1378)-ci ildə Tunisə getmiş, Sultanın himayəsi altında elmi araşdırmalarını davam etdirmişdir. Əsərin "Tunis nüsxəsi" adlandırılan bu hissəsində o, Qərbi Afrikada yaşayan ərəb və barbar xanədanlarının İslamdan əvvəl və sonrakı tarixləri haqqında məlumat vermişdir.

Tunis hakiminin burada sakit bir həyat sürən İbn Xəlduna qarşı çıxması səbəbilə Misirə getməyi qərara alan alim Sultan Bərkükün taxta çıxmasından az sonra Qahirəyə gəlmişdır. Misir torpağında yaxşı qarşılanan İbn Xəldun Əl-Əzhərdə dərs deməyə başlamış, qısa bir müddət ərzində ətrafına çoxlu tələbə toplaya bilmişdir. İbn Xəldun Misirdə olduğu vaxt "Əl-İbər" üzərində işləməyə davam etmişdir. Şərqdəki qəbilələr və xanədanların tarixlərini də əlavə edərək əsərini geniş bir tarixi mənbə halına gətirmişdir. "Ət-tarif bi İbni Xaldun muallifi hazəl kitab" التعريف بابن خلدون مؤلف هذا الكتابadlı

tərcümeyi halını da kitabın sonuna əlavə edərək onu Sultan Əbu Fariz Əbdüləziz bin Həsənə göndərmişdir. Bu nüsxə "ən-Nüsxətül-Farsiyyə" adıyla tanınmışdır. [4, XIX, 540] "Əl-İbər" İbn Xəldunun ən böyük əsəridir. Müəllif girişdə tarix elminin əhəmiyyətini, tarixin yazılmasında və araşdırılmasında istifadə olunan metodları, tədqiqatlar zamanı tarixçilərin etdikləri səhvləri ön plana çəkmişdir. Ondan əvvəl heç kimin bu mövzuda tədqiqat aparmadığını qeyd edən alim bu əsəri yazarkən nə kimi məqsəd güddüyünü və məqsədinə çatmaq üçün hansı metodlardan istifadə etdiyini açıq şəkildə göstərir. Buna görə də, tədqiqatçılar "Müqəddimə" adı ilə tanınan "Əl-İbər"in ön söz və girişini əhatə edən bu hissəyə xüsusi dəyər vermişdirlər. Ona şöhrət gətirən, nəinki İslam dünyasının həmçinin bütün dünya düşüncə tarixinin ən mükəmməl əsəri olan "Müqəddimə"yə bu adı İbn Xəldun özü verməmişdir. "Əl-İbər"in yuxarıda qeyd etdiyimiz kimi ön söz və girişini təşkil edən birinci cildi zaman keçdikcə "Müqəddimə" adlandırılmışdır. [6, II, 314; 4, XX, 541]

"Əl-İbər"in ikinci kitabı başlanğıcdan İbn Xəldunun dövrünə qədər başda ərəblər olmaq şərtilə ona qonşu olan nəbatilər, süryanilər, farslar, yəhudilər, misirlilər, yunanlar, rumlar, türklər kimi müxtəlif millətlərin tarixlərini əhatə edir. "Əl-İbərin" II, III, IV, V cildlərini özündə birləşdirən ikinci kitabda İbn Xəldun Hz. Mühəmməd(s) Peyğəmbər, Raşidi xəlifələri, Əməvi və Abbasi xanədanları, Salarilər, Rəvvadilər, Eldəgizlər, Xarəzmlər, ərəb qoşunlarının Azərbaycana hücumu, Azərbaycanda məskən salan ərəb tayfaları, azərbaycanlılardan alınan vergilər haqqındakı məlumatlara yer vermişdir.

"Əl-İbər"in üçüncü kitabı barbarlar və Qərbı Afrika tarixini əhatə edərək VI və VII cildlərdən ibarətdir. Bu kitabda İbn Xəldun Şərq tarixçilərinin çox az tədqiq etdikləri Məğrıb (Qərb) tarixilə əlaqəli dəyərli məlumatlar vermişdir. Onun verdiyi bu məlumatların çox hissəsi şəxsi müşahidələrinə, rəvayətlər və müasir dövrümüzə gəlib çatmamış bəzi mənbələrə əsaslanır.

"Əl-İbər"in son cildinə "Ət-Tarif bi İbn Xəldun müəllifi həzəl-kitab" التعريف بابن خلدون مؤلف هذا الكت ب başlıqlı tərcümeyi halı əlavə etmişdir. Əvvəlcə həyatının hicri 734 (miladi 1332)-cü ildən hicri 797 (miladi 1395)-cı ilə qədərki dövrünü əhatə edən bu hissəsini sonra hicri 808 (miladi 1405)-cı ilə qədər artırmışdır. İbn Xəldun "ət-Tarıf"də sadəcə öz həyatına dair məlumatlar verməklə kifayətlənməmiş, həmçinin şahidi olduğu ictimai-siyasi hadisələr haqqında da izahatlar vermişdir. Bundan başqa "ət-Tarif"də İbn Xəldunla eyni dövrdə yaşamış şairlər, alimlər, ədiblər və dövlət adamları haqqında da məlumatlar almaq mümkündür.

"Əl-İbər"dən başqa İbn Xəldun "Lubabul-muhassal fi usulud-din, Şifaüs-sail li təhzibil məsail" لبا ب المحصل في أصول الدين adlı əsərin də müəllifidir. Adı çəkilən ikinci kitab müasir dövrümüzə qədər gəlib çatmamışdır. Bu kitab haqqında İbn Xəldunun heç bır əsərində məlumat verilmir. Bəzi alimlərin fikrincə isə bu kitab onun atasına məxsusdur. Əbdürrəhman Bədəvi və Ət-Tənci kimi tarixçilər əsərin "Müqəddimə"dən əvvəl, hicri 774-776 (miladi 1372-1374)-cı illərdə yazıldığını qeyd edirlər.

Şərq tarixşünaslığının bir digər görkəmli nümayəndəsi də İbrahim bin Məhəmməd bin Aydəmir əl-Əlaidır. İbn Doxmaq kimi tanınan bu tarixçi hicri 750 (miladi 1349)-ci ildə Qahirədə dünyaya gəlmişdir. Dövrünün sayılan tarixçilərindən və fəqihlərindən biri olan İbn Doxmaq tanınmış tarixçi əl-Məqrizinin müəllimi olmuşdur. İslamın hənəfi məzhəbinə mənsub olan alim yazdığı "Təbaqət" kitabında imam Şafinin əleyhinə olan fikir-lər söyləmişdir. Buna görə də şafilərin təqibinə məruz qalmışdır. İbn Doxmaq hicri 810 (miladi 1407)-cu ildə Qahirədə vəfat etmişdir. [7, I, 58]

Görkəmli alimin yaradıcılığına gəldikdə isə o, bu gün qaynaq hesab edilə biləcək bir çox əsərlər yazmışdır. "Əl-Cavhər al-samin fi siyar al-muluk vas-salatın" الجوهر السامعين في سيار الملوك والسلاطين adlı əsəri Misir Məmluk sultanı Əbu Səid Bərkükün tapşırığı ilə yazılmışdır. Bu əsər hicri 797 (miladi 1395)-ci ilin sonuna qədər baş vermiş hadisələri özündə birləşdirir. Kitabda xəlifə Əbu Bəkrin dövründən başlayaraq Raşidi xəlifələr, Əməvilər, Abbasilər, Əyyubilər haqqında qısa və ümumi məlumat verilsə də, Məmlüklərə aid olan fəsillər, xüsusən də Sultan Bərkük dövrü, bu dövrdəki İraq, Anadolu, Qızıl-Orda ilə olan münasibətlər geniş işıqlandırılmışdır. [6, II, 49]

Onun ikinci əsəri "Nuzhat əl-Ənam fi tarix al-İslam" نذحة الأنعام في تاريخ الإسلام adlanır. On iki cilddən ibarət olan bu əsər ümumi İslam tarixini əhatə edir. Təəssüf ki, bu kitabın bütün cildləri bu

günə qədər gəlib çatmamışdır. "Kitab əl-intişar li vasıtat 'iqd əl-əmsar" كتاب الإنتشار لوسطة عقد الأمصار adlı üçüncü kitabı on islam şəhərinin topoqrafıyasını və coğrafiyasını on cilddə əks etdirən bir əsərdir.

Bunlardan başqa İbn Doxmaq həmçinin "Nazm əl-cuman fi tabaqat ashab imaminə ən-Numan" نظم الجمان في طبقات اصحاب إمامنا النعمان və "Tarcuman əz-zaman fi taracim al-ayan" ترجمان الزنان في تراجم الأعيان adlı kitabların müəllıfi olmuşdur. [3, 724] Birincı kitab üç cilddən ibarətdir. Kitabın birinci cildi bütünlüklə Əbu Hənifənin həyat və fəaliyyətini araşdırmağa həsr olunmuşdur. Digər iki cilddə isə hicri IX əsrin əvvəlinə qədər hənəfi fəqihlərinin tərcümeyi-halları və elmi fəaliyyətləri haqqında məlumat verilmişdir. İkinci kitab isə bütövlükdə bu günümüzə qədər gəlib çatmamışdır. Onun bu gün elm aləminə məlum olan hissələri isə Topqapı saray muzeyinin kitabxanasında saxlanır. İbn Doxmaq əsərlərini yazarkən əsasən əl-Əzmi, İbn əl-Əsr, İbn-abd əl-Zahir, Zahabi və Safadi kimi müəlliflərin əsərlərindən mənbə kimi istifadə etmişdır. [7, II, 123, 179]

Tarix elmidə əvəzsiz yeri olan digər bir müəllif isə Əl-Məqrizidir. XV əsrdə ərəb tarıxşünaslığı xüsusilə inkişaf etmişdi. İbn Furat, İbn Xəldun kimi tarixçilərin ölmələrinə baxmayaraq onların layiqli tələbələri bu tarixçilərin ənənələrini davam etdirmişlər. XV əsr ərəb tarixçilərinin ön cərgədə gedənlərindən biri də Məqrizidir. Hicri 765 (miladi 1364)-cı ildə Qahirədə dünyaya gəlmiş tarixçinin əsl adı Əhməd bin Əlidir. Məqrizi ilk təlim-tərbiyəsini hənəfi məzhəbinə mənsub olan babasından almışdır. Lakın, babasının ölümündən sonra o, şafi məzhəbini qəbul etmişdir. [4, XXVII, 449] Əl-Məqrizi Sultan Bərkük tərəfındən yüksək vəzifələrə təyin olunmuşdur. Həyat yoldaşı tərəfindən çoxlu mirasa sahib olduqdan sonra rəsmi vəzifəsındən istefa edərək ömrünün qalan hissəsini elmə həsr etmişdir. Onun ən məşhur əsərlərindən biri də "Kitab əs-suluk li Mərifat Duval əl-Mu-luk" كتاب السلوك لمعرفة دول الملوك adlı əsəridir. Əl-Məqrizi bu əsərində müasiri olduğu Sultan Şeyx əl-Mahmudi dövründə baş vermiş tarıxi hadisələri daha dəqiq və geniş qələmə almışdır. Əl-Məqrizi "əs-Suluk"dan başqa Məmluklərin ictimai və iqtisadi tarixini əhatə edən "Şuzur əl-Uqud fi zikr əl-Nuqud" شزر العقود في ذكر النقود əsərini yazmışdır. Bu əsər də birincı əsər kimi qiymətli məlumatlarla zəngindir. [4, XXVII, 453]

Şərq tarixşünaslığının digər bir nümayəndəsi də əl-Aynidir. Əsl adı Əbu Məhəmməd Mahmud Əhməd bin Musa bin Əhməd bin Hüseyn bin Yusif bin Mahmud Bədr əd-Din olan əl-Ayni hicri 761 (miladi 1360)-ci ildə Ayntab şəhərində doğulmuşdur. Ziyalı ailəsində dünyaya gəldiyi üçün təhsilinə hələ kiçik yaşlarından başlamışdır. Təhsil almağa doğulduğu şəhərdə başlamış sonra Bihisni, Malatya və Hələbdə, daha sonra isə Şam, Qüds və Qahirə kimi böyük şəhərlərdə davam etdirmişdir. Hicri 801-802 (miladi 1398-1399)-ci illərdə Qahirədə Sultan Məlik əl-Zahir Bərkük tərəfindən şəhərin muhtəsibi təyin olunmuşdur. [6, II, 64-66] Bir müddət bu işdə çalışdıqdan sonra daha yüksək bir vəzifəyə təyin olunmuşdur. Türk dilini gözəl bilməsi onu Sultan Müəyyd, Sultan Məlik əl-Zahir Tatar və Sultan Məlik əl-Əşrəf Parsbayın yanında xüsusi hörmət və etiram sahibi etmişdir. Əl-Ayni Sultan Məlik əl-Zahir Tatarın əmri ilə Qudurinin fiqhə dair əsərini türkcəyə tərcümə etmişdir. Sultan Məlik əl-Əşrəf ilə görüşdükləri vaxt ona ərəbcə yazmış olduğu əsərini ərəbcə yazıya baxaraq türkcə oxuyurdu. Bütün bunlar onun türk dilini nə qədər gözəl bildiyini sübut edir. Əl-Aynı dövlət işində işləməklə yanaşı mədrəsələrdə və dərsxanalarda müəllimlik də edirdi.

Sultan Məlik əl-Əşrəf Parsbayın Diyarbəkir hökmdarı Qara Yuluq Osmana hücum etdiyi vaxt bu yürüşdə iştirak edən Ayni hicri 939 (miladi 1435) Biləcikə qədər gəlib çıxmışdır. [3, II, 70-72] Məlik əl-Zahir Çaxmağın hakimiyyəti dövründə bir müddət əvvəlki vəzifəsində işləsə də sonra Sultanın gözündən düşmüş və bütün vəzifələri əlindən alınmışdır. Ömrünün son günlərini kasıbçılıq içərisində keçirən böyük alim gündəlik ehtiyaclarını kitablarını satmaqla qarşılayırdı. İşindən uzaqlaşdırıldıqdan iki il sonra 91 yaşında dünyasını dəyişən əl-Ayni özünün təsis etdiyi mədrəsə əl-Ayniyyədə dəfn olunmuşdur. [4, IV, 272]

Əl-Məqrizi ilə eyni dövrdə və eyni dövlətdə yaşayan əl-Ayni, əvvəlcə onunla yaxşı münasibətdə olmuşdur. Ayninin Məqrizinin yerinə mühtəsib təyin olunmasından sonra bu münasibət pozulmuşdur. Bir-biri ilə xoş münasibətdə olmamalarına baxmayaraq müasirlərinin və tələbələrinin dediklərinə görə onların hər ikisi Şərqin Görkəmli fəqihi, tarixçisi, hədisçisi və lüğətçisi olmuşdurlar. Ayninin yazdığı əsərlərə gəlincə isə onların sayları çoxdur. Onun əsərləri içərisində "Ikd əl-cuman fı tərıx əhl əz-zaman" عقد الجمان في تاريخ أهل الزمان, "əl-Məqasıd al-nahviya fı şərh şəvahid şuruh əl-əlfiya"

المقاصد النحوية في شرح شواهد شروح الألفية seçilir. [4, IV, 272] Həmçinin Buxarinin "Səhih"inə yazmış olduğu "Umdat əl-kari fi şərh əl-Buxari" عمدة القاري في شرح صحيح البخاري adlı şərhi onun ən məşhur əsərlərindəndir. Tarixçilər arasında ona xüsusi hörmət qazandıran əsəri olan "İqd əl-cuman fi əhl əz-zaman" 19 cildlik qiymətli bir mənbədir. Dünyanın yaradılışından başlayaraq alimin yaşadığı dövrü də əhatə edən bu əsərin son iki cildi daha dəqiq və dəyərlidir. Çünki əl-Ayni bu cildlərdə öz əksini tapan hadisələrin ya birbaşa şahidi olmuş, ya da sultanlardan və əmirlərdən eşitmişdir. İbn Həcər, İbn Təğriberdi, İbn Bahadur əl-Mumin kimi məşhur tarixçilər əl-Aynının bu əsərindən mənbə kimi istifadə etmişdirlər. [4, IV, 272] Türk əsilli olan əl-Ayninin əsərinin digər üstünlüyü də ondadır ki, türklərə aid ərazilərin və şəxsiyyətlərin adlarını daha düzgün tələffüz etmişdir.

Digər bir tarixçi alim İbn Həcərdir. Əsl adı Əhməd bin Əli bin Məhəmməd bin Məhəmməd bin Əli bin Əhməd Şihab əd-Din Əbul-Fəzl əl-Kinani əl-Əskəlani əl-Misri əl-Qahiri olan İbn Həcər hicri 774 (miladi 1372)-cü ildə Qahirədə ziyalı ailəsində dünyaya gəlmişdir. Kiçik yaşında ana və atasını itirən İbn Həcəri oxumuş bir adam olan tacir Zaki əd-Din əl-Harrubi böyütmüşdür. Doqquz yaşında Quranı əzbər bilən İbn Həcər əl-Bulkini, İbn əl-Mulakin, İzz əd-Din İbn Camaa kimi dövrünün Görkəmli alimlərindən dərs almışdır. Hicri 792 (miladi 1390)-ci ildən etibarən təhsilinə Misir, Suriya və Hicaz şəhərlərində davam etmişdir. [6, I, 82, 84, 445] Ona təklif olunan qazılıq vəzifələrinə bir neçə dəfə imtina etdikdən sonra bu vəzifədə işləməyə razı olmuşdur. İyirmi bir il bu vəzifədə işləməklə yanaşı müxtəlif məscid və mədrəsələrdə (əl-Şəhavi bunların sayının 16 olduğunu qeyd edir) təfsir, hədis, fiqh dərslərini tədris etmişdir. Dövrünün ən böyük hədis alimi olan İbn Həcərin dərsləri həmişə diqqət mərkəzində olurdu. İbn Həcər görkəmli alim olmaqla yanaşı həm də gözəl şair və yazıçı idi. Alimın yazdığı "Fəth əl-bari fi şərh sahih al-Buxari" فتح الباري في شرح صحيح البخاري adlı əsəri hələ onun sağlığında 300 (üç yüz) dinara satılmışdır. [6, I ,777]

Ümumiyyətlə, İbn Həcər 150-yə qədər əsərə müəlliflik etmişdir. Bu əsərlər içərisində ən məşhurları bunlardır: "Təhzib ət-təhzib",تحزيب التحزيب "Təcil əl-mənfəə bi zavaid rical əl-aimma əl-ərbəa",تاجيل المنفع بزوائد رجال الأئم الأربع "Əl-qaul əl-musaddad fil-zabbaq əl-musnad lil-imam Əhməd" القول المصدد في الزباق المصند للإمام أحمد "Buluğ əl-məram min adillət əl-əhkam fi ilm əl-hədıs", بلوغ المرام من عدلة الأحكام في علم الحديث "Əd-Duvar əl-kaminə fi ayan al-mia əl-samina", الدور الكامنة في أعيان المائدة الثامنة "İnba əl-gumr bi abna əl-umr", إنباء القمر بأبناء العمر "Raf' al-isr an kuzat Mısır". رفع الأثر عن كوزة مصر[93) , V/2, 736]

Şərqın bu böyük alimi hicri 853 (miladi 1449)-cü ildə vəfat etmişdir. Şagirdi əs-Sahavi müəlliminin tərcümeyi-halını "Əl-Cavahir val-durar fi tarcamat şeyx ul-İslam İbn Hacar" الجواهر والدرر في ترجمة شيخ الإسلام ابن الحجر adlı əsərində yazmışdır. [3; V/2, 737]

Orta əsr Şərq tarixinin tədqiqində əvəzsiz mənbələr qoymuş alimlərdən biri də İbn Ərəbşahdır. İbn Ərəbşahın adının geniş forması Əhməd bin Məhəmməd bin Abdullah bin İbrahim Şihabəddin əbul-Abbas əd-Dəməşqi əl-Hənəfi əl-Əcəmidir hicri 791-854 (miladi 1389-1450). O, dövrünün Görkəmli tarixçisi, ədibi, lüğətçisi və din xadimi olmuşdur. Bir müddət Osmanlı imperatorluğunun ərazisində yaşadığı üçün ona Rumi ləqəbi verilmişdir. [9, IV, 331] Kiçik yaşlarından öz vətənindən ayrılaraq uzun müddət başqa-başqa ölkələrdə yaşamağa məcbur olmuş Ərəbşaha bu səbəbdən Əcəmi təxəllüsü verilmişdir. [8, I, 540] O, hicri 791 (miladi 1389)- ci ildə Dəməşqdə (Şam) dünyaya gəlmişdir. "Ukud əl-nasiha" عقد النصيحةadlı tərcümeyi-halında yazdığına görə 1400-cü ildə Dəməşqin Teymur tərəfindən zəbt olunduğu vaxt əsir edilərək anası və qardaşları ilə birlikdə Səmərqəndə göndərildı. Bu vaxt onun 12 yaşı vardı. Teymur fəth etdiyi ölkələrdən çoxlu alim, şair, təbıb və sənətkarı əsir edərək Səmərqəndə gətirmişdir. [6, II, 22-23] Bütün bunlar isə İbn Ərəbşahın Görkəmli alim kimi yetişməsində böyük rol oynayırdı. Ərəb dilindən başqa fars, türk və monqol dillərini bilən İbn Ərəbşah İdğütəmur mədrəsəsində Seyyid Şərif Məhəmməd əl-Cürcanidən dərs almışdır. [8, II, 1128, 1152] Sonra təhsilini kamilləşdirmək məqsədi ilə Görkəmli şəxsiyyətlərin yaşadığı ölkələrə səyahətə çıxmaq qərarına gəlmişdir. Mavərənnəhrdən Çin səddinə qədər uzanan Türküstan səfərində o, bir çox elm adamı ilə tanış olaraq onların biliklərindən faydalanmışdır. Oradan Dəşt ölkəsinə keçmiş, burada dörd il qaldıqdan sonra Qara dəniz yolu ilə Ədirnəyə, Çələbi Məhmədin sarayına gəlmişdir. Sultan Məhməd tərəfindən çox yaxşı qarşılanan İbn Ərəbşah dövrünün elmlərini gözəl bildiyi və bır neçə xarici dildə danışdığı üçün Divanu-humayunda vəzifə alaraq Çələbi Məhmədin

katibi kimi uzaq və yaxın ölkələrdə danışıqlar aparmışdır. Çələbi Məhmədin ölümündən sonra hicri 821 (miladi 1421)-cı ildə 10 il qaldığı Osmanlı imperatorluğunu tərk edərək Dəməşqə gəlmişdir. Həmyerliləri tərəfindən Əcəmi adlandırılan İbn Ərəbşah əsərlərinin çox hissəsini burada yazmışdır. Hicri 842 (miladi 1438)-cı ildə Qahirəyə gedən İbn Ərəbşah bir daha vətəninə dönməmiş, ömrünün sonuna qədər burada yaşamışdır. [3, V/12, 699] Əvvəlcə Sultan məlik əz-Zahir Çaxmaq tərəfindən yaxşı qarşılanan böyük alim sonra, Qahirədəki digər alimlərin paxıllıqları nəticəsində Çaxmaq tərəfindən qatil və canilər ilə birlikdə həbsə atılır. Həbsdə beş gün qalmasına baxmayaraq bu təhqirə dözməyən alim həbsdən çıxdıqdan on iki gün sonra vəfat edir. [8, II, 1198, 1646]

İbn Ərəbşahın əsərlərinə gəlincə, bu əsərlərdə gəzdiyi bütün ölkələrdəki siyasi və iqtisadi vəziyyət öz əksini tapmışdır. “Acaib əl-makdur fi navaib Timur” عجائب المكدور في بوائب تيمور adlı tarixi əsərində əsasən Teymurun istilalarına geniş yer verir, onun fəth etdiyi bütün ölkələrdə əhaliyə verdiyi dözülməz zülmü dönə-dönə qeyd etmişdir. Bundan əlavə bu əsərdə Dulqədirli, Osmanlı və Qaraqoyunlular haqqında maraqlı və qiymətli məlumatlar vermişdir. [67, 106-107] İbn Ərəbşah təkcə tarixi aspektdə deyil, həmçinın ədəbiyyat, dilçilik, din və başqa mövzuda da əsərlər yazmış, bir sıra görkəmli alimlərin əsərlərini türk dilinə tərcümə etmişdir. [1, 139-140]

Digər bir görkəmli tarixçi isə İbn Təğriberdidir. Əbu Məhasin Cəmal əd-dın Yusif ibn Təğriberdi əl-Atabəyi əl-Yəşbuğavi əz-Zahiri. İbn Təğriberdi hicri 812 (miladi 1409)-ci ildə anadan olub. Qaynaqlarda onun atası əmir Seyfəddin Təğriberdinin Anadolu əsilli bir məmluk olduğu bildirilir. Bundan başqa adının tükcə olması (Tanrıverdi, Tanrıbirdi, Tanrıberdi), türk dilini və türk tarixini çox gözəl bilməsi onun türk olduğunu söyləməyə əsas verən amillərdir. [2, 356] Təğriberdinin anası da türk əsillidir və o da həyat yoldaşı kimi əl-Məlik-Zahir Bərkükün azad etdiyi kölələrdəndir. Onun təxəllüsü də (Zahir) buradandır. Əmir Təğriberdi azad edildikdən sonra qısa müddət ərzində irəli gedərək Sultanın ən yaxın əmirləri sırasına daxil olmuşdur. [9, II, 51-52; II, 39-40] Onun Hələb naibliyinə təyin olunmasını və əl-Məlikul-Mansur Məhəmmədin qızı ilə evlənməsini nəzərə alsaq onun Sultana necə yaxın olduğunun şahidi olarıq. Bərkükün ölümündən sonra onun yerinə keçən oğlu Məliku-Nasir Fərəc də ona xüsusi hörmət ilə yanaşmışdır. Qaynaqlarda Sultan Fərəcin əmir Təğriberdini Dəməşq naibliyinə təyin etməsi və onun qızlarından biri ilə evlənməsi göstərilir. [8, II, 1932] Atasının öldüyü vaxt İbn Təğriberdinin iki və ya üç yaşı vardı. Tanınmış bir əmirin oğlu və Sultanın qaynı olması onu yetımliyin çətinliklərindən qurtardı.

İbn Təğriberdi yaxşı təhsil görmüş İbn Ərəbşah, əl-Məqrizi kimi böyük alimlərdən dərs almışdır. O, Məqrizi və Ayninin vəfatından sonra Misir tarixçilərinin lideri olmuşdur. İbn Təğriberdinin tərcümeyi-halını yazan tələbəsi İbn Türkmanın dediyinə görə o ağıllı, savadlı, əxlaqlı bir insan olmuşdur.

İbn Təğriberdi eyni zamanda dövrünün gözəl şairi və musiqiçisi idi. Onun əsərlərindən biri olan “Əl-nücum əz-zahira fi muluki Misir val-Qahira” النجوم الظاهر في ملوك مصر والقاهرة müsəlman Misir tarixçilərinin yazdığı əsərlərin ən mükəmməllərindəndir. Əsər Misirin fəthindən müəllifin vəfatından iki gün əvvələ qədərki dövrü əhatə edir. İbn Təğriberdi kitabın müqəddiməsində bu əsəri hər hansı bir Sultanın xahişi ilə deyil, şəxsən öz istəyi ilə yazdığını bəyan etsə də sonra Əl-Məlıku-Zahir Çaxmağın oğlu Əmir Məhəmmədin təşəbbüs və təklifi ilə yazdığını etiraf edir. [3, XI, 705] İbn Təğriberdi bu əsərdə müəllimi Məqrizinin metodunu deyil, başqa bir metod tətbiq edərək hər Sultanın dövrünü ayrı-ayrı hissələrdə yazmış və həmin Sultanın dövründə baş verən bütün hadisələri həmin hissənin içərisinə daxil etmişdir. Bundan başqa hər ilin sonunda o il vəfat edən məşhurların siyahısını vermişdir. Müəllif dövrünün tarixçilərindən fərqli olaraq X əsrə qədər olan dövrü daha geniş araşdırmış və bu vaxtlarda yaradılan müstəqil dövlətlər haqqında daha maraqlı məlumatlar vermişdir. Buna görə də həmin əsəri Fatimilər üçün zəngin və dəyərli qaynaq hesab etmək olar. İbn Təğriberdi Məmlüklər dövrünü yazarkən əsərini daha da genişləndirərək Məmlük sultanlarının demək olar ki, gündəliyini yazmışdır. O, “Nücum əz-Zahira”nı yazarkən İbn-əl-Əsr, İbn Kəsr, İbn-əl-Cəvzi, Səhabəddin Əhməd əl-Nuveyri kimi tarixçilərin əsərlərindən qaynaq kimi istifadə etmişdir.

“Nücum əz-Zahira”dan başqa İbn Təğriberdi “əl-Mənhəlu Şafi vəl-mufevfel badəl-vafi”, المنهل شافي والموفل بعد الوافي “əl-Dəlilu şafi alə-l-mənhəli-şafi” الدليل شافي على المنحل شافي , “Havadisu duhur fi mədal-əyyam və şuhur” حوادث ظهوار في مد الأيام والشهور və s. kimi böyük əsərlərin müəllifidir.

Orfoqrafik və fonetik səhvlərin olmasına baxmayaraq İbn Təğriberdinin əsərləri tarixçilər üçün ən zəngin qaynaqlardan biri hesab olunur. [3, XI, 707]

## Nəticə

*Bu məqalədə Şərq tarixşünaslarının bəziləri ilə və onların yazdıqları əsərlərdən ən məşhurları ilə tanış olduq. Bu kimi müəlliflərin əsərləri Şərqin siyasi, iqtisadi, mədəni tarixi ilə bağlı maraqlı və dəyərli məlumatlarla zəngindir. Bu əsərlərin tarixçilər tərəfindən tədqiqi vətənimiz haqqında maraqlı məlumatların ortaya çıxmasına zəmin yaradır. Bu mənbələrdəki məlumatları qarşılıqlı tədqiq etməklə tarixdə baş vermiş hadisələrə daha dəqiq qiymət vermək mümkündür.*

## Ədəbiyyat siyahısı:

1. Akkoyunlu N. A. Dr. Adil Şen Türkmen Akkoyunlu imparatorluğu. Ankara: Qrafiker Ltd. Sti. 2003, 418 s.
2. Azərbaycan tarixi. III c, Bakı: Elm, 1999, 534 s.
3. İslam Ansklopedisi. İstanbul: Türkiye Diyanet Vakfi, 1998.c XXX, 560 s.
4. İbn Battuta Seyahetname. İstanbul: Üçdal Neşriyyat, 1983, Hazırlayan. Cevk M, I c, 389 s.
5. Sümer F. Boz ulus haqqında. Dil ve Tarih-Coğrafiya fakultesi dergisi. VII № 1, s 14.
6. Karl Brockelman Geschichte der Arabischen Literatur. Leiden E.J.Brill 1943, I b 676; 1949 II b 686, Supplementband I b 1937,973; II b 1938 ,1045; III b 1942, 1326.
7. احمد بن محمد بن عبدالله بن ابراحيم شهاب الدين ابو العباس الدمشقى الحنفى الاجمع (إبن عربشه).
8. حاجى خليفة كاتب چلبى. كشف الظنون. تأليف. استنبول. بتعة البهية ١٩٤٣، ٢جلد، ص(١٤٣٦).
9. خيرالدين الزركلى. الاعلم قامسن الترجرام، ٨ج. - ١ج، ٣٣۶ص

**Nijabat Islamova**

## THE HISTORY OF THE EAST THROUGH THE EYES OF EASTERN HISTORIANS

*Summary*

Historiography in the East was highly developed for the middle captives. Looking at the works written during this period, it is possible to find interesting and valuable information about Azerbaijan here. If we look at the works written during this period, we will see that they were written mainly in Arabic and Persian. Most of the works written in Turkish were translated during the time of the Ottoman rulers.

***Keywords:*** *East, manuscript, Qaraqoyunlu, historian, Ottoman*

*Filologiya üzrə elmlər doktoru, professor*
***Kamandar Şərifov*** *tərəfindən çapa tövsiyə olunmuşdur.*